Ümummilli lider Heydər Əliyevin anadan olmasının
99-cu ildönümünə həsr olunmuş

# "HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI"

***V Beynəlxalq elmi konfransının***

# MATERİALLARI

*28 aprel 2022-ci il*

---

V International Scientific Conference

# "HEYDAR ALIYEV: THE IDEOLOGY OF MULTICULTURALISM AND TOLERANCE"

***dedicated to the 99th anniversary of the birth of National Leader***

# MATERIALS

*28 April 2022*

---

V Международная научная конференция

# «ГЕЙДАР АЛИЕВ: ИДЕОЛОГИЯ МУЛЬТИКУЛЬТУРАЛИЗМА И ТОЛЕРАНТНОСТИ»,

***посвященная 99-летию со дня рождения Общенационального лидера***

# МАТЕРИАЛЫ

*28 апреля 2022 года*

**Redaksiyanın ünvanı:**
Az1014, Bakı şəhəri, R.Behbudov küçəsi, 134.
Azərbaycan Dillər Universiteti,
Email: aduelmixeberler@gmail.com

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş
**“HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI”**
*V Beynəlxalq elmi konfransın materialları.* – Bakı: ADU, 2022. – 328 səh

ISBN: 978-99-52-37-693-7

© ADU, 2022

*Ağayev Emil*
***ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci***

# AZƏRBAYCAN-MİSİR MULTİKULTURAL MƏDƏNİ ƏLAQƏLƏRİNİN TƏSVİRİ SƏNƏTİMİZDƏ ƏKSİ

**Açar sözlər:** *Azərbaycan, Misir, təsviri sənət, multikulturalizm, ənənə*
**Keywords:** *Azerbaijan, Egypt, fine arts, multiculturalism, tradition*
**Ключевые слова:** *Азербайджан, Египет, изобразительное искусство, мультикультурализм, традиция*

Azərbaycanın xarici siyasətinin əsas uğurlarından biri xarici ölkələrlə olan diplomatik münasibətləridir. Multikultural ənənələrin uğurla inkişaf etdiyi ölkəmizdə digər xalqların mədəni irsinə hörmətlə yanaşılır. Qərb və şərq sivilizasiyalarının birləşdiyi kəsişmədə Azərbaycan incəsənət, mədəniyyətin inkişafına da öz töhfələrini vermişdir. Multikultural mədəni əlaqələrin, uğurlu siyasi münasibətlərin tarixən geniş yayıldığı ölkələr sırasında Misirin adını xüsusilə vurğulamalıyıq. Hər iki ölkənin dostluq əlaqələri təsviri sənətimizdə rəssamlarımız tərəfindən maraqlı kompozisiyalarla təqdim edilmişdi. Misirin memarlığı, tarixi, sənət əsərləri sənətkarlarımızın diqqət mərkəzində olmuşdur.



***İll 1. Cəmil Müfidzadə "Daimi dostlar" (2004)***

Xalq rəssamı Cəmil Müfidzadə 2006-cı ildə Bakıda sənətsevərlərə təqdim etdiyi "Misir təəssüratları" silsiləsi onun dünyanın qədim memarlıq möcüzələri ilə zəngin ölkəyə yaradıcılıq səfərinin nəticəsi idi. Silsilənin 2006-cı ildə təqdimatı zamanı maraqlı xüsusiyyətlərdən biri ekspozisiyaya xəttatlıq nümunəsi daxil edilmişdir. Belə ki, salona daxil olan tamaşaçıları ərəb qrafikası ilə yazılmış "Bağışlayan və mehriban Allahın adı ilə" müqəddəs kəlamı qarşılayırdı. Silsiləyə daxil olan hər bir əsər tamaşaçıları Misirə səyahət etdirir. "Səyahətçilər" əsərində yorğun insanlar dəvələrin üzərində uzun səfərlərini davam edirlər, qızmar günəş isə onları müşayət edir. XXI əsrin taksilərini isə rəssam "Gizada "taksi" dayanacağı" əsərində təqdim edir. Misirlilərin pramidaları, dəvələrin sahibinin maraqlı obraz həllinə əsaslanması şərq ölkəsinin mədə-niyyətinin əsas simvollarıdır. Cəmil Müfidzadə "Daimi dostlar" və "İki dost" kompozisiyalarında fəlsəfi ideya insanın yaxın dostu olan dəvənin təsvir elementləri canlandırılmışdı."Doğma musiqi", "Tənha yolçu", "Ziyarətçilər", "Müqəddəs şəhər", "Namaz vaxtı", "Şəhzadə", "Karvan", "Şahmat", "Doğma yerlər", "Gənc bədəvilər" əsərlərinin hər biri özündə Misir təəssüratlarını birləşdirir.

Tahir Salahovun "Sfinks" (1972), Hafiz Məmmədov "Luksorda məbəd" (1959), Nadir Əbdürrəhmanov "Qızmar gün" (1959) əsərləri də ideya məzmun, süjet rəngarəngliyi ilə Misir mədəniyyətini təqdim edir.

Avanqard istiqamətin görkəmli nümayəndəsi Mirnadir Zeynalov "Misirə yürüş" (2012) əsərində qədim tarixi ilə seçilən ölkənin simvolları təqdim edilmişdi. Karton üzərində, tuş, akril texnikaları ilə "Misir mənzərəsi" (2010) kompozisiyası rəng, perspektiv təsvir həllinə əsaslanmışdı.

Azərbaycan-Misir multikultural mədəni əlaqələri gələcəkdə də inkişaf edərək rəssamlarımız üçün yeni imkanlar yaradacaq.






***İll 2. Hafiz Məmmədov "Luksorda məbəd" (1959) (kətan, yağlı boya 70 x 50 sm)***

***İll 3. Mirnadir Zeynalov "Misir mənzərəsi" (2010) (karton, akril, tuş, 50 x 70 sm)***

**Ədəbiyyat:**

1. Əliyev Z. "Cizgilərə hopan ömür" // Bakı Oskar 2011 // 275 s.
2. Müzəffərli D. "Multikulturalizm və tolerantlıq diyarı Azərbaycan"// Bakı 2016 // 119 s.